DOI: https://doi.org/10.36719/2706-6185/24/51-55

**Gülhanə Hüseynova**
Azərbaycan Dillər Universiteti
magistrant
gulhanehuseynova@gmail.com

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN YARADILMASI (C.MƏMMDƏQULUZADƏNİN "QURBANƏLİ BƏY" HEKAYƏSİ ƏSASINDA)

## Xülasə

Məqalədə C.Məmmədquluzadənin "Qurbanəli bəy" povesti əsasında ədəbiyyat dərslərində fənndaxili və fənlərarası inteqrasiyanın yaradılmasından bəhs edilir. Belə ki, müasir dərslərdə yeni texnologiyalardan istifadənin vacibliyi, fənndaxili inteqrasiya zamanı məzmun standartları, onların fənlərarası inteqrasiyası zamanı ədəbiyyatın digər fənlərlə əlaqəsi. burada qeyd olunur. Həmçinin, müasir dərslərə olan tələblər və bir çox alimin bu mövzuya dair fikirləri də məqaləyə daxil edilmişdir.

***Açar sözlər:*** *kurikulum, dərs, inteqrasiya, fəndaxili əlaqə, fənlərarası əlaqə, fəal təlim*

**Gulhana Huseynova**
Azerbaijan University of Languages
master student
gulhanehuseynova@gmail.com

# Creation of intra-science and inter-science integration in literature lessons (based on the story "Gurbanali bey" by C.Mammadguluzade)

## Abstract

The article talks about the creation of intra-subject and interdisciplinary integration in literature classes based on the story "Gurbanali Bey" by J.Mammadguluzade. Thus, the importance of using new technologies in modern lessons, the content standards during intra-subject integration, the connection of literature with other subjects during interdisciplinary integration and their role in the mental development of students are mentioned here. Also, the requirements for modern lessons and the opinions of many scientists on this topic are included in the article.

***Keywords:*** *curriculum, lesson, integration, internal integration, interdisciplinary integration, interactive training*

## Giriş

Müasir təhsil konsepsiyası təlimin inteqrativ məzmununun ardıcıl davam etdirilməsi onun yeni texnologiyalar zəminində mənimsənilməsini lazım bilir. Başqa sözlə, inteqrativ məzmun inteqrativ texnologiyaların olması zərurətini meydana çıxarır. Sinkretik xarakterinə görə dərs bunların içərisində ən vacibi hesab edilir. Akademik M.M.Mehdizadənin təbirincə desək, "Dərs pedaqoji prosesin hüceyrəsi deyil, onun özəyidir, həlledici hissəsidir. Onda pedaqogikanın xeyli hissəsi deyil, şagirdlərin təlim və tərbiyəsinin məzmunundan, yollarından, prinsip və metodlarından bəhs olunan əsas hissəsi cəmlənir" (Mehdizadə, 1982: 321).

Tədris prosesində təhsil alanın hər tərəfli şəxsiyyət kimi formalaşması üçün yeni pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə daha uğurlu nəticələrin əldə edilməsinə gətirib çıxara bilər. Məhz, bu yeni pedaqoji texnologiyalar, tədris prosesinin təşkil olunması və şagird nailiyyətlərinin qiymətləndirilməsi ədəbiyyat fənni kurikulumunda öz əksini tapmışdır. Belə ki, orta ümumtəhsil məktəblərində bədii əsərlərin öyrədilməsi şagirdlərdə şifahi və yazılı nitqin inkişafına, bədii zövqün formalaşmasına şərait yaradır. İstər milli, istərsə də dünya

ədəbiyyatından seçilmiş kamil sənət nümunələri şagirdlərdə sözə və söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırır.

Müasir dövrdə tədris prosesində keçirilən mövzuların dərindən mənimsədilməsi, öyrənilən bilik və bacarıqlar arasında sistemli əlaqənin qurulması şagirdlərin elmi dünyagörüşünün formalaşmasına zəmin yaradır. Ədəbiyyat təliminin keçirilməsi zamanı qarşıya bir neçə tələblər qoyulur. Ədəbiyyat fənn kurikulumunda göstərildiyi kimi ədəbiyyat dərslərinə verilən tələblər aşağıdakılardır:

- ədəbiyyat dərslərində elmilik;
- ədəbiyyat dərslərində ideyalılıq;
- ədəbiyyat dərslərində intensivlik;
- ədəbiyyat dərslərində emosionallıq;
- ədəbiyyat dərslərində ineqrativlik;
- ədəbiyyat dərslərində əyanilik;
- ədəbiyyat dərslərində texniki vasitələrdən istifadə (Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı, 2013: 43).

B.Həsənli qeyd edirdi ki, ədəbiyyat təliminə verilən müasir tələblərdən biri də fəndaxili və fənlərarası əlaqə imkanlarından səmərəli istifadə olunmasıdır. Ədəbiyyat fənni mahiyyət etibarilə inteqrativdir (Ümumtəhsil məktəblərinin VIII sinfi üçün ədəbiyyat dərsliyi, 2019: 208). Bəşər və mədəniyyət tarixinin mühüm qolu olmaqla tarixə, elmə, mədəniyyətə dair bədii, elmi və fəlsəfi əsərləri özündə əks etdirən ədəbiyyat həyatı bədii sözlə əks etdirən söz sənəti olduğundan onun bir təlim fənni kimi digər elm sahələri ilə əlaqəsi danılmazdır. Belə ki, peşəkar müəllim ədəbiyyat dərslərində tədris olunan ədəbi əsərləri müxtəlif təlim metod və üsullarından istifadə etməklə digər təlim fənləri və həyatla əlaqəli şəkildə təşkil edə bilər.

Elmi ədəbiyyatlarda qeyd olunur: "İnteqrativ öyrənmə şagirdlərin ətraf mühitin müəyyən aspektlərini müxtəlif fənlərə aid biliklər vasitəsilə geniş araşdırılmasıdır" (Kərimov, Əhmədova, Varella, Reyli, 2006: 304). Bu fikrə əsaslanaraq, qeyd edə bilərik ki, dərs prosesinin təşkili zamanı təkcə hər hansı bir təlim fənni və ya fənnin özü ilə əlaqə yaratmaq kifayət etmir. Keçirilən mövzuları müvafiq olaraq həyat, ətraf aləmlə də əlaqələndirmək lazımdır. Belə ki, ədəbiyyat ətrafımızda cərəyan edən hadisələri bədii söz və ifadələrlə əks etdirdiyi üçün şagirdlərin mövzu baxımından əsərdə baş verən hadisələri, obrazları, sonda çıxarılan nəticəni real həyatla əlaqələndirməsi onların humanist, xeyirxah, vətənpərvər, tolerant, cəmiyyət üçün yararlı şəxsiyyət kimi formalaşmasına zəmin yaradacaqdır. Yəni, əgər şagirdə "Kitabi-Dədə Qorqud" dastanının "Qazan bəyin evinin yağmalanması" boyu tədris edilirsə, o, burada döyüş səhnələrinin ustalıqla canlandırılması, qəhrəmanların hiss, düşüncə aləminin kiçik, lakin dolğun şriftlərlə açıqlanması, oğuz türklərinin yüksək mənəvi-əxlaqi dəyərlərə sahib olmaları və bu dəyərləri ləyaqətlə yaşatmaları kimi bir çox məsələlərlə tanış olacaqdır. Təsadüfi deyildir ki, 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük vətən müharibəsi dövründə oğuz türklərindən günümüzə qədər gəlmiş olan vətən, torpaq anlayışlarının öz həqiqi mənasını necə qoruyub saxladığını biz aydın şəkildə görə bildik. Ədəbiyyat müəllimi məhz, tədris prosesində Qazan xanın və onun igidlərinin düşmənə qarşı əzmkarlıqla mübarizəsini və ona məğlubiyyət yaşatmasını Vətən müharibəsində canından keçən şəhidlərimiz və qazilərimizin şücaətləri timsalında şagirdlərə təqdim edə bilər.

Həmçinin, peyzaj nümunələri ilə tanış olan şagird onu təbiətlə əlaqələndirəcəkdir. Məsələn, Ş.İ.Xətayinin "Dəhnamə" poemasından olan "Bahariyyə" hissəsi ilə tanış olan şagird bədii nümunəni oxuduqca onda yaz fəslinin gəlişi ilə ətraf aləmin oyanmasından doğan təəssüratlar yaranır, beynində bahar fəsli ilə bağlı bütün lövhələr canlanmış olur. Məhz, yuxarıda göstərilənlər elmi ədəbiyyatda müstəqil bir termin kimi işlədilən fənnüstü inteqrasiyaya nümunə ola bilər.

Orta ümumtəhsil məktəblərində həyat və yaradıcılığı geniş tədris edilən ədiblərimizdən biri də Cəlil Məmmədquluzadədir. Fəndaxili və fənlərarası inteqrasiyanın ən mükəmməl nümunələrini C.Məmmədquluzadə yararadıcılığında görmək olar. Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadə zəngin ənənələrə malik misilsiz xidmətləri olan nadir simalardan biridir. Nizaminin erkən və orta əsrlərdə, Füzulinin XVI əsrdə, M.F.Axundovun XIX əsrdə Azərbaycan intibahında oynadığı rolu XX əsrdə C.Məmmədquluzadə və onun başçılıq etdiyi "Molla Nəsrəddin" ədəbi cərəyanı həyata keçirmişdir.

Orta məktəbin səkkizinci sinif ədəbiyyat dərsliyində C.Məmmədquluzadə yaradıcılığından "Qurbanəli bəy" hekayəsi tədris olunur. Məlum olduğu kimi, ədibin yaradıcılığında rus hakimiyyətinin ağır müstəmləkəçilik siyasəti, xalqın dözülməz həyat şəraiti, elm və təhsil, din və dil məsələləri, qadın azadlığı və s. kimi məsələlər öz əksini tapır. Ədib müxtəlif insan talelərinin fonunda bu problemləri işıqlandıraraq onları ifşa etmişdir.

G.Babayeva öz məqaləsində yazırdı ki, "Qurbanəli bəy" portret hekayəsi olduğundan təbii ki, tədqiqatçılar daha çox mənfi çalarları öz üzərində cəmləşdirmiş baş qəhrəmanı diqqət mərkəzində saxlamışlar (Babayeva, 2019: 6). Onu da qeyd edək ki, əsərin yazılması Azərbaycanın çar Rusiyası tərəfindən işğal edildiyi dövrə təsadüf edir. Məhz, belə bir tarixi şəraitdə yazıçı Qurbanəli bəy obrazını yaratmaqla əslində hər cür həqarətlərə, təhqirlərə məruz qalan, əzilən xalqımızın faciəli taleyini oxuculara təqdim edir. Əsərin süjet xətti pristavın xanımının ad günü üzərində qurulsa da, hadisələr Qurbanəli bəyin ətrafında cərəyan edir, onun simasında o dövrkü yaltaq bəylərin əsl üzü gülüşlə ifşa edilir.

Lakin, ədibin yaradıcılığını tədris etməzdən əvvəl onun həyatı, şəxsiyyəti barədə müəyyən məlumatları şagirdlərin nəzərinə çatdırmaq lazımdır. Cəlil Məmmədquluzadə özünün ədəbi-estetik mübarizəsi XIX əsr Azərbaycan maarifçiliyinin korifeyləri olan Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabinin tarixi mübarizə idealları ilə sıx bağlı idi. Məhz, buradan çıxış edərək qeyd edə bilərik ki, tədris prosesində fəndaxili inteqrasiya zamanı bu üç ədibin fəaliyyəti, Azərbaycan xalqı üçün gördüyü işlər qarşılaşdırıla və şagirdlərə təqdim edilə bilər.

C.Əhmədov da öz elmi əsərində ümummetodik tələblərdən biri kimi dərsin özündən əvvəlki və sonrakı məşğələlərlə əlaqəsini göstərmişdir (Əhmədov, 1991: 181). Dərslərin yeni təlim texnologiyalarından istifadə yolu ilə qurulması və eyni zamanda inteqrativ təlim imkanlarının reallaşdırılması zəruri tələb kimi qarşıya qoyulur. Tədris prosesində keçirilən dərsin özündən əvvəlki və sonrakı mövzularla əlaqələnməsi şagirdlərdə idraki, psixomotor və affektiv-emosional öyənməni inkişaf etdirəcəkdir. Məsələn, səkkizincici sinifdə oxuyan şagirdə Ə.Haqverdiyevin "Bomba" hekayəsi tədris olunarkən artıq o, ötən dərslərdə C.Məmmədquluzadə yaradıcılığından öyrəndiyi "Qurbanəli bəy" hekayəsi ilə əlaqə yaradacaqdır. Çünki, şagird yeni dərslə tanış olduqda görür ki, "Bomba" hekayəsi janr xüsuiyyətləri baxımından "Qurbanəli bəy" hekayəsinə bənzəyir. Hətta bu iki əsərin gözlənilməz sonluqla bitməsini ortaq cəhət kimi göstərərək onların novella olduğunu sübuta yetirir.

Ədəbiyyatın tədrisi zamanı ilk növbədə humanitar fənlər üzrə bilik və bacarıqların əlaqələndirilməsi zəruridir. Ümumiyyətlə, hər hansı bir fənnin tədrisi zamanı təlimdə inteqrativliyi təmin edərkən, altstandart müəllimə iki və daha çox fənnin mövzusunu və ya konsepsiyasını birləşdirməyə, eyni mövzunu əvvəlki siniflərlə əlaqələndirməyə və ya öyrənilən mövzunu həyatla əlaqələndirməyə imkan verir. Bilal Həsənli qeyd edirdi ki, müasir mərhələdə "fəndaxili, fənlərarası əlaqə" termini ilə yanaşı, fənn kurikulumlarının tətbiqi ilə əlaqədar "fəndaxili və fənlərarası inteqrasiya" termini də işlənilir. Fəndaxili və fənlərarası əlaqəyə nisbətən inteqrasiya geniş anlayışdır (Həsənli, 2014: 311).

Bildiyimiz kimi, ədəbiyyat həyatı obrazlı şəkildə əks etdirən söz sənətidir, incəsənətin bir növüdür. Buradan belə bir nəticəyə gəlmək olar ki, ədəbiyyat həyatı özünəməxsus yollarla əks etdirən digər fənlərlə - tarix, coğrafiya, təbiətşünaslıq, din, eləcə də, rəssamlıq, musiqi, heykəltaraşlıqla sıx əlaqəlidir. Təbii ki, sənətkarın əsəri yazarkən istifadə etdiyi material bədii söz olduğundan buradakı dil faktorunu, yəni ədəbiyyatın bir fənn kimi Azərbaycan dili ilə də əlaqəsi qaçılmazdır. Nəzərə alsaq ki, bu iki fənnin məzmun xətlərinin ikisinin mahiyyəti (ədəbiyyatda 2. Şifahi nitq və 3. Yazılı nitq və Azərbaycan dilində 2. Oxu və 3. Yazı) eynidir, onda bu fənlərin bütün siniflərdə və mövzulardakı daimi inteqrasiyasını təxmin etmək çətin deyil.

Fənlərarası inteqrasiya iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq, vərdiş və prinsiplərin sintezidir. Bu inteqrasiya bir fənnin qanun, nəzəriyyə və metodlarının başqa fənnin öyrədilməsində istifadə olunmasını nəzərdə tutur. Ədəbiyyat özü tarixi yaşadır və eyni zamanda, özü tarixdə yaşayır. Fənlərarası inteqrasiya zamanı ilk növbədə keçirilən əsərlərin mövzusundan asılı olaraq tarix fənni ilə əlaqə qurmaq olar. "Qurbanəli bəy" hekayəsində Azərbaycan tarixinin Rusiya imperiyasından asılılığını göstərən məqamların bolluğu məsələn, kəndin adının Qapazlı olması,

kəndlilərin rus mülkədarlarının qulluğunda müti durması, əsərdə işlənən "qlava", "naçalnik", "pristav" kimi rus sözləri bunun bariz nümunəsidir: *"...Birdən qaçaqaç düşdü; dedilər "naçalnik gəlir". Qlavalar çıxdılar qapıya, xanım çıxdı balkona, tulalar hücum çəkdilər adamlaın üstünə və bir qədər keçdi guya qurbağanın gölünə daş atdılar; çünki bu gələn naçalnik deyilmiş, özgə mahalın pristavı imiş. Pristav atdan yenib girdi həyətə və balkona çıxıb xanıma rusca bir neçə söz deyib özü də güldü və xanımı da güldürdü. Və sonra hər ikisi girdi içəri"* (Məmmədquluzadə, 2004: 175).

Hekayədə Qurbanəli bəyin "Uzundərə" rəqsini oynaması epizodu şagirdlərə milli rəqsimiz haqda dolğun məlumat verir. Tədris prosesində hekayənin məhz həmin hissəsini şagirdlər səhnələşdirərək musiqi fənni ilə inteqrativ əlaqə yarada bilərlər. Həmçinin Qurbanəli bəy obrazı haqqında əlavə məlumat vermək üçün İKT-nin imkanlarından istifadə etmək informatika fənni ilə əlaqə qurmağı zəruri edir. Məsələn, "Qurbanəli bəy" teletamaşasından hekayənin təzadlarla dolu obraz olan baş qəhrəmanının ağalara qarşı necə itaətkar, yaltaq, tabeliyində olanlara, eləcə də ailəsinə qarşı sərt olması epizodları videofraqmentlər şəklində şagirdlərə təqdim oluna bilər. Və ya elektron lövhə vasitəsilə şagirdlərə sözügedən hekayə və "Bomba" hekayəsinin təhlilinin oxşar və fərqli cəhətlərini göstərən Eyler-venn diaqramının təsvir olunduğu slaydlar nümayiş oluna bilər.

Əgər fənlərarası inteqrasiya müxtəlif təlim fənləri ilə əlaqədar verilən biliklərin bir-birilə əlaqələndirilməsidirsə, fəndaxili əlaqə bir təlim fənni üzrə bilikərin bir-birilə əlaqələndirilməsidir. Fəndaxili inteqrasiya müəyyən bir fənn üzrə mövzunun öyrətdiyi anlayış, bilik, bacarıq və vərdişlərin əlaqələndirilməsi, faktların sistemli verilməsidir. Ədəbiyyat dərslərində bütün mövzular üzrə fəndaxili inteqrasiya reallaşdırılmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, şagirdlərə öyrədilən bilik və bacarıqlar onlar üçün lazımlı və əhəmiyyətli olsun.

Ədəbiyyat təlimində fəndaxili inteqrasiyanın yaradılması – şagirdlərin eyni sinifdə və müxtəlif siniflərdə söz sənəti üzrə əldə etdiyi biliklərin, bacarıqların əlaqələndirilməsinin aşağıdakı imkanlarını qeyd etmək olar:

1. Mövzu, problem, janr baxımından bir-biri ilə səsləşən əsərlərin əlaqəli öyrənilməsi;
2. Ayrı-ayrı siniflərdə sənətkarın həyat və yaradıcılığı üzrə mənimsənilmiş biliklərin əlaqələndirilməsi;
3. Ədəbiyyat nəzəriyyəsi üzrə bilik və bacarıqların əlaqələndirilməsi;
4. Şifahi və yazılı nitq bacarıqlarının əlaqələndirilməsi;
5. Bədii əsərlərin oxusu, təhlili, qiymətləndirilməsi üzrə bacarıqların əlaqələndirilməsi (Həsənli, 2014: 312).

Müəllimin yuxarıda göstərilən fəndaxili əlaqə imkanlarından istifadə edərək şagirdə mövzunu təqdim etməsi əsərin mövzusunun, janr xüsusiyyətlərinin, məzmun və formasının, obrazlar sisteminin daha aydın şəkildə mənimsənilməsinə gətirib çıxara bilər. Məsələn, C.Məmmədquluzadənin orta ümumtəhsil məktəblərinin on birinci sinifində tədris edilən "Anamın kitabı" tragikomediyasında öz soykökündən uzaqlaşan, təhsil aldıqları müxtəlif ölkələrin mənafeyinə uyğun əqidə sahibi olan qardaşlar arasında oxşar və fərqli cəhətlərin üzə çıxarılması məhz, bədii əsərin oxusu və təhlili zəminində aşkarlana bilər. Belə ki, rollu oyun iş üsulundan istifadə edərək şagirdlər öz rollarına uyğun olaraq qardaşlara aid nitqləri səsləndirə bilərlər. Beləliklə, səslənən hər bir nitqdə şagirdlər qardaşlara xas bütün xüsusiyyətləri aydın şəkildə üzə çıxara biləcəklər. Təbii ki, bu da əsərin bədii oxusundan sonra aparılan təhlil əsnasında aşkar olacaq.

Ümumtəhsil məktəblərinin səkkizinci sinfi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaitində göstərildiyi kimi, fəndaxili inteqrasiyanın digər mühüm yolu məzmun standartlarının inteqrativ şəkildə reallaşdırılmasıdır. Belə ki, ədəbiyyat kurikulumunda bütün məzmun xətləri və standartları arasında təbii əlaqə vardır (Ümumtəhsil məktəblərinin VIII sinfi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti, 2019: 29). Tədris prosesində keçirilən mövzuya müvafiq məzmun standartlarının reallaşdırılması uğurlu təlim nəticələrinin əldə edilməsinə gətirib çıxara bilər. Şagirdlərin verilmiş mövzuları tam şəkildə mənimsəmələri üçün müəllim məzmun standartlarında dövlətin qarşıya qoyduğu tələbləri müvəffəqiyyətlə yerinə yetirməlidir. Məzmun standartları arasında düzgün əlaqənin qurulması, verilmiş mövzunun tələbinə uyğun olaraq müvafiq standartların seçilməsi fəndaxili inteqrasiya zamanı mühüm rol oynayır.

Vəsaitdə qeyd olunduğu kimi, "Qurbanəli bəy" hekayəsi 2 saat əsərin məzmunu üzrə iş və 1 saat əsərin təhlili üzrə iş olmaqla tədris olunur. Ədib bu əsərində Qapazlı kəndinin mülkədarı məşhur Qurbanəli bəy obrazının timsalında bütün mənfi və yaramaz keyfiyətləri özündə birləşdirən tipik bir mülkədar obrazı yaratmışdır.

Əsəri tədrisi edən müəllim ədəbiyyat fənn kurikulumunda göstərilən müvafiq altstandartları reallaşdırmalıdır. Belə ki, "Qurbanəli bəy" hekayəsi tədris olunarkən aşağıdakı altstandartlar reallaşdırıla bilər:

1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafor, bədii təzad, kinayə) müəyyənləşdirir.

1.2.1. Bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) növ və janr baxımından müqayisə edir.

1.2.2. Obrazların nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir.

1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.

2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir (Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı, 2013: 19-20) və s.

Təbii ki, yuxarıda verilmiş altstandartların hamısı bir dərs saatında reallaşdırıla bilməz. Müvafiq olaraq, ən azı 2 və ya 3 altstandart olmaqla, əsərin təhlili və məzmunu üzrə işlə bağlı ayrılan dərs saatlarında inteqrativ şəkildə həyata keçirilə bilər. Məsələn, əsərin təhlili üzrə iş zamanı məzmun standartlarına uyğun olaraq Aşıq Ələsgərin "Dağlar" şeirinə inteqrasiya etmək olar. Belə ki, 1.1.5., 1.2.1., 1.2.4., altstandartlarına görə şagirdlər iki bədii nümunəni müqayisə edərək, hekayə janrı ilə şeirin oxşar və fərqli cəhətlərini ortaya çıxaracaq, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirəcəklər.

## Nəticə

Müşahidələr göstərir ki, tədris materialının fənlərarası inteqrasiya yaratmaqla öyrədilməsi əqlin sürətli inkişafına imkan verir. Fənlərarası inteqrasiya faktik materialın məzmununa, əqli əməyin xarakterinə görə şagirdin fərdi, yaradıcı potensialının inkişafında vacib əhəmiyyət kəsb edir. Fəndaxili inteqrasiyanın yaradılması isə dərsliklərdə əks olunan bədii nümunələrin tam şəkildə şagirdlərə mənimsədilməsində mühüm rol oynayır. Fənlərarası və fəndaxili əlaqə şagird fəaliyyətini məntiqi, tənqidi və yaradıcı məcrada istiqamətləndirir, onun koqnitiv xarakter almasına təsir göstərir.

## Ədəbiyyat

1. Mehdizadə, M.M. (1982). Ümumtəhsil məktəblərində təlim və tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: "Maarif", 321 s.
2. "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu)". (2013). (V-XI siniflər), 93 s.
3. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün ədəbiyyat dərsliyi. (2019). Bakı: "Şərq-Qərb", 208 s.
4. Kərimov, F.Y., Əhmədova, M.C., Varella, G., Reyli, Ə. (2006). İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı: "Adiloğlu", 304 s.
5. Babayeva, G. (2019). "Qurbanəli bəy" hekayəsi: görünən və görünməyən tərəflər, 525-ci qəzet, 6 s.
6. Əhmədov, C. (1991). Ədəbiyyat tədrisi metodikası. Bakı: "Universitet" nəşriyyatı, 455 s.
7. Həsənli, B. (2014). Ədəbiyyatın tədrisi metodikası. Bakı: "Müəllim" nəşriyyatı, 423 s.
8. Məmmədquluzadə, C. (2004). Əsərləri. 4 clddə. I cild. Bakı: "Öndər" nəşriyyatı, 664 s.
9. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. (2019). Bakı: "Şərq-Qərb", 208 s.

Göndərilib: 06.04.2023 Qəbul edilib: 01.06.2023